
Giriş nöqtələri kontrollerin sazlanması

Bizdə infrastrukturda Ubiquiti UniFi WiFI Controller istifadə olunduğundan, bütün işlər məhz bu softun üzərində aparılacaq. Amma onu demək lazimdır ki, digər giriş nöqtələri kontrollerlərdədə eyni (istər Cisco, Rukus, Huawei və s.) sazlamaları etmək mümkündür. Ən azından bu UniFi-da varsa, başqa giriş nöqtələri kontrollerlərdədə bu olmalıdır!

Konfiqurasiya zamanı, kontrollerə RADİUS serveri əlavə etdikdə **RADIUS Assigned VLAN Support** bölməsində **Wireless Networks** bölməsini aktivləşdirin.




Əmin olun ki bütün lazımı VLAN-ları əlavə etmisiniz

Bizim konfiqurasiyada 4 ədəd VLAN istofadə olunur.


AD	VLAN ID	Təsvir

SSID_Internal	31	Sadə istofadəçilər üçün nəzərdə tutlub harda ki • server şəbəkəsinə məhdud icazələr mövcuddur • icazələr yalnız ancaq lazım olan tcp və udp protlar vasitəsi il verilib • Application Control aktivləşdirilib
SSID_Guest	32	Hamı üçün nəzərdə tutlan WiFI şəbəkə. Bu VLAN-dan daxili şəbəkəyə heç bir icazə mövcu deyildir.
IT_Support	25	Helpdesk-lər üçün nəzərdə tutlmuş WiFI şəbəkə hardan texniki qrup seçilmiş server və şəbəkə avadanlıqlarına giriş icazələri verilib
AdminNetwork	26	Əsas admin VLAN və burada bütün infrastruktur əlçatandır.



SSID əlavə edin, istədiyiniz kimi adlandırın və əsas məsələ əmin olun ki

- **Network** bölməsində **Defaulr Network** seçilib
- **Security Protocol** bölməsində **WPA2 Enterprise** seçilib
- **RADIUS Profile** bölməsində daha öncəki addımda yaratdığınız radius profaylı seçin. Bizim misalda bu **RSSO**-dur



Revision #5
Created 30 March 2024 16:22:42 by Vüsal M. Dadaşov
Updated 30 March 2024 21:09:00 by Vüsal M. Dadaşov